


Azərbaycan baletinin təbliği və inkişafında müstəsna xidmətləri var. Milli baletlərdə klassik rəqs texnikası və xalq rəqslərinə xas elementlərdən məharətlə istifadə etmişdir. Zəriflik və realizm onun yaradıcılığının əsas xüsusiyyətlərindəndir.

Söhbət bu günlər anadan olmasının 80 illik yubileyini qeyd etdiyimiz Azərbaycanın görkəmli balet ustası, SSRİ xalq artisti Leyla Vəkilovadan gedir.

Leyla Məhəd qızı Vəkilova 1927-ci il yanvarın 29-da Bakıda anadan olmuşdur. 1943-cü ildə Bakı Xoreoqrafiya Məktəbini (Qəmər Almaszadənin sinfi üzrə) bitirmiş, 1945-1946-cı illərdə Moskva Xoreoqrafiya Məktəbində təcrübə keçmişdir.

1943-1971-ci illərdə M.F.Axundov adına Azərbaycan Dövlət Opera və Balet Teatrının solisti olmuşdur.

İlk dəfə səhnədə Tao Xoa (R.M.Qliver - "Qırmızı lalə") rolunu oynamışdır. Sonralar oynadığı bir-birindən maraqlı rollar ona geniş tamaşaçı rəğbəti qazandırmışdır. Onlardan Odeta-Odilliya (P.Çaykovski - "Sonalar gölü"), Zarema (B.Asafyev - "Baxçasaray fontanı"), Laurensiya (A.Kreyn - "Laurensiya"), Raymonda (A.Qlazunov - "Raymonda"), Jizel (A.Adan ("Jizel"), Gülyanaq (Ə.Bədəlbəyli - "Qız qalası"), Gülşən (S.Hacıbəyov - "Gülşən"), Ayişə (Q.Qarayev - "Yeddi gözəl"), Şirin (A.Məlikov - "Məhəbbət əfsanəsi"), Sari (Q.Qarayev - "İldırımlı yollarla"), Qaraca qız (Ə.Abbasov - "Qaraca qız") və s. partiyalarını göstərmək olar.

Xarici ölkələrdə və keçmiş SSRİ-nin bir çox şəhərlərində qastrol səfərlərində olmuşdur. Bakı Xoreoqrafiya Məktəbində 1953-cü ildən dərs demişdir. Leyla xanım həmçinin 1976-cı ildən Azərbaycan Rəqs Ansamblının bədii rəhbəri olmuşdur.

**S.MƏMMƏDOVA**



Son illər demək olar ki, Asiya kinosu tamamilə deformasiyaya uğrayaraq öz Şərq üslubunu itirib. Belə ki, Şərq kinosu Hollivud filmlərinin əksidir. Şərq rejissorları əkranda hər şeyi diqqətlə nəzərdən keçirib, böyük ustalıqla Hollivudu Şərqə köçürməyə nail olmuşlar. Asiya kino sənayesi renesans dövrünü yaşamaqdadır. Artıq bir neçə ildir ki, Avropa ekranlarına amansız hücumu təşkil edən Şərq "Gizlənmiş nəhəng", "Aşiqanə əhval-ruhiyyə", "Təhlükəli balkon", "Birləşmiş təhlükəsizlik ərazisi", "Gəmiçilər", "Qəhrəman" filmlərində vəziyyət sərt döyüş səhnələrindən ekzotik drama qədər gedib çıxır. Lakin bu gün Hollivudun ideal səfaləti fonunda Şərq kinosu irəliləyir, inkişaf edir. Bütün sahələri vəhşicəsinə zəbt edir. Və ən əsası isə bizim zövqümüzü oxşayan Şərq artıq bu zövqü tamamilə korlamaqdadır.

Şərq kinosunda müasirlik tezisi isə demək olar ki, bu gün kino üçün qlobal bir vəziyyətə çevrilib. Çünki bu müasirlik öz normasını aşmaqdadır. Artıq bu Şərq müasirliyi, bayağı, banal məzmuna malik olan Amerika müasirliyidir. Elə Şərq kinosunu başdan-başa bəzəyən bu müasirlik Şərq filmlərinin reytinqini sıfıra endirməkdədir... Şərq ölkələrində əsasən melodramalar, dramalar və macəra filmləri üstünlük təşkil edir. Məsələn, Hind kinosu dedikdə isə yüngül salon melodramaları - ifalar, böyük rəqs kollektivləri və ən əsası isə yerli, yersiz göz yaşları böyük tamaşaçı kütləsini riqqətə gətirdi.

Hindistanda 1896-cı ildə "Sinematoqraf" -hərəkət edən fotoşəkillər ilk dəfə Bombeydə "Yuston" otelində göstərilməyə başladı. Bu ilk fotoşəkillər reportaj xarakterli olsa da, bu fotoşəkillərdə tarixi həqiqət yaratdı. Çünki, "Nümayiş" adlı fotoşəkil o vaxt Hindistan xalqının vəziyyətindən xəbər verirdi. 1923-cü ildə ilk Hind filmi "Xariş Çandra" ekranlara çıxdı. Filmin rejissoru D.Pixalke həddindən artıq böyük uğur qazandı. 1939-cu ildə "Çağırış" və 1941-ci ildə "Makedoniyalı İsgəndər" filmləri çəkildi. Bunlar demək olar ki, tarixi filmlər hesab olunurdu. İsgəndərin həyatından bəhs edən bu tarixi film Amerika kinosunda səs-səda doğurdu. Ümumiyyətlə həmin illərdə tarixi və sənədli filmlərə Hindistan rəhbərliyi tərəfindən böyük nəzarət var idi.

Bu illərdə Hindistanda kino həyatın aktual probremlərindən çox uzaq idi. Hollivud filmlərinə oxşama halları davam edirdi. Dönüş 30-cu illərin ortalarında baş verdi. Filmlərdə real həyatı əks etdirmək meyli gücləndi. Tarixi həqiqətlər, tarixi təhrif edən filmlər artmağa başladı. Filmlərin səviyyəsinə tələbkarlıq artdıqca onların sayı azalmağa başladı. 1935-ci ildə 235 film çəkilirdisə, 1936-cı ildə 172, 1939-cu ildə 154 film çəkildi. Filmlərin texniki səviyyəsi yüksəldi. Montajdan istifadə olunmağa başladı. Musiqi nümunələrinin sayı azaldı, dialoqlar qısa oldu.

30-cu illərin ortalarında ən populyar filmlər müasir mövzulu filmlər idi. İngilislərin yaratdıqları senzuraya baxmayaraq, milli şüuru oyadan filmlər çoxalmaqda idi. Həmin dövrdə Hindistanda V.Şontram, N.Bos, D.Bos, P-S-Barua kimi böyük rejissorlar fəaliyyət göstərirdilər. Onların yaradıcılığında həyatı realist tərzdə əks etdirmək meyli əsas idi.

Hindistanın görkəmli kino xadimi rejissor Bimol Roy yazır ki, "Potyomkinin zirehli gəmisi" və "Qlinka" kimi sovet filmləri Hindistan kino sənətinin realizm və xəlqilik yolu ilə inkişafına xeyli kömək etmişdir.

Şərq ölkələri sırasında Türkiyə kinosu xüsusi yer tutur.